## 2011-Cİ İL ÜÇÜN ƏSAS QRANT MÜSABİQƏSİ (EİF-2011-1(3)) ÇƏRÇİVƏSİNDƏ YERİNƏ YETİRİLMİŞ LAYİHƏ ÜZRƏ ELMİ NƏŞRLƏR VƏ ƏSAS ELMİ NƏTİCƏLƏR

Tədqiqatın məqsədi Azərbaycanda əsas makroiqtisadi göstəricilərin qarşılıqlı əlaqə və təsirlərinin müəyyən edilməsi və bunun əsasında büdcə-vergi və monetar siyasət tədbirlərinin əlaqələndirilməsi mexanizminin formalaşdırılmasının elmi əsaslarının hazırlanması kimi müəyyənləşdirilmişdir.

Layihə çərçivəsində tədqiqatlarda kiçik açıq iqtisadiyyatda makroiqtisadi tarazlıq və iqtisadi artımın təmin olunmasının nəzəri-praktiki məsələləri, o cümlədən Azərbaycan iqtisadiyyatında ayrı-ayrı parametrlərin (faiz dərəcəsi, mübadilə məzənnəsi və s.) dəyişmə xüsusiyyətləri nəzəri-metodoloji aspektdən araşdırılmış, makroiqtisadi tarazlığı təmin edən şərtlər müəyyənləşdirilməklə, iqtisadi artımın keyfiyyət və kəmiyyət parametrləri arasında əlaqə qiymətləndirilmişdir. Araşdırma zamanı əsas iqtisadi parametrlər xüsusilə, büdcə kəsri və pul kütləsinin həcminin, vergilərin səviyyəsi, faiz dərəcəsi, mübadilə məzənnəsi və digər amillərin qısamüddətli və uzunmüddətli dövrlərdə makroiqtisadi tarazlığa və iqtisadi artım tempinə təsirləri müəyyənləşdiirlmişdir. Tədqiqatlarda həmçinin, xarici iqtisadi fəaliyyətin məcmu təklifin artımında və daxili tələbin ödənilməsində rolu, o cümlədən, daxili investisiya qoyuluşlarının maliyyələşdirilməsində xarici amillərin daxili parametrlərə təsiri qiymətləndirilmişdir.

Araşdırmalar nəticəsində makroiqtisadi tarazlıq və iqtisadi artım tempi arasında seçim şərtləri müəyyən edilmiş, büdcə xərclərinin artım tempinin makroiqtisadi tarazlığa və iqtisadi artım tempinə təsiri qiymətləndirilmişdir. Layihə çərçivəsində həmçinin, büdcə-vergi və monetar siyasətin əlaqələndirilməsi mexanizminin araşdırılması istiqamətində araşdırmalar aparılmaqla, müvafiq xarici təcrübə əsasında hazırda mövcud mexanizmin təkmilləşdirilməsinə dair təklif və tövsiyələr hazırlanmışdır.